AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

21 İYUN 2019-cu il CÜMƏ № 132 (6459) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

### V.S.Eyvazovun Azərbaycan Respublikasının daxili işlər naziri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vilayət Süleyman oğlu Eyvazov Azərbaycan Respublikasının daxili işlər naziri təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 iyun 2019-cu il.**

### M.Q.Quliyevin Azərbaycan Respublikasının müdafiə sənayesi naziri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mədət Qəzənfər oğlu Quliyev Azərbaycan Respublikasının müdafiə sənayesi naziri təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 iyun 2019-cu il.**

### R.İ.Usubovun Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ramil İdris oğlu Usubov Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 iyun 2019-cu il.**

### Ə.N.Nağıyevin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əli Nağı oğlu Nağıyev Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 iyun 2019-cu il.**

### R.İ.Usubovun Azərbaycan Respublikasının daxili işlər naziri vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ramil İdris oğlu Usubov Azərbaycan Respublikasının daxili işlər naziri vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 iyun 2019-cu il.**

### M.Q.Quliyevin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mədət Qəzənfər oğlu Quliyev Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 iyun 2019-cu il.**

### V.S.Eyvazovun Azərbaycan Respublikasının daxili işlər nazirinin birinci müavini vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vilayət Süleyman oğlu Eyvazov Azərbaycan Respublikasının daxili işlər nazirinin birinci müavini vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 iyun 2019-cu il.**

### "Azərsilah" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 yanvar tarixli 466 nömrəli Fərmanının ləğv edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərsilah" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 yanvar tarixli 466 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, N 1, maddə 56) ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 iyun 2019-cu il.**

*Prezident İlham ƏLİYEV:*

# Sabitlik olmadan heç bir ölkə inkişaf edə bilməz

**Sabitlik olmadan heç bir ölkə inkişaf edə bilməz. Bu, aksiomdur. Bunu biz yaxın tarixdə dəfələrlə görmüşük. Sabitlik pozulan zaman inkişaf dayanır, sərmayə qoyuluşu dayanır, ölkə iqtisadiyyatı tənəzzülə uğrayır. Bir sözlə, sabitlik hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Azərbaycanda isə sabitliyin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və bizim apardığımız siyasətdir. Çünki bizim siyasətimiz milli maraqlara söykənir, milli maraqlarımız bizim üçün hər şeydən üstündür.**




AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 84-cü kitabında yer alan bu fikirlər Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısının söylədiyi nitqindən götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2017-ci ilin noyabrından 2018-ci ilin yanvarınadək olan dövrü əhatə edir.

Kitaba Prezident İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsinə dair İstanbulda keçirilmiş Zirvə toplantısında, Moskvada MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə çıxışlarının mətnləri, Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfəri, Davos Forumu çərçivəsində "Strateji baxış: Avrasiya" mövzusunda interaktiv iclasda iştirakı haqqında informasiyalar daxil edilib. Nəşrdə dövlətimizin başçısının Azərbaycana səfərə gəlmiş Əfqanıstan Prezidenti ilə görüşünə və sənədlərin imzalanmasına, Bolqarıstanın Baş Naziri ilə görüşünə dair materiallar yer alıb.

Çoxcildliyin 84-cü kitabında, həmçinin Prezident İlham Əliyevin Xorvatiya, Türkiyə, Pakistan, Hindistan, İran, Estoniya, Rusiya və digər dövlətlərin, Avropa İttifaqının, Beynəlxalq Telekommunikasiya İttifaqının, Dünya Bakının ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsi barədə materiallar toplanıb.

Yeni nəşrə dövlətimizin başçısının Bakıda "Asiyanın qəlbi - İstanbul prosesi" çərçivəsində "Gücləndirilmiş "Asiyanın qəlbi" regionuna doğru təhlükəsizlik və iqtisadi bağlantılar" mövzusunda yeddinci Nazirlər Konfransında nitqinin, 2017-ci ilin idman yekunlarına həsr olunmuş mərasimdə çıxışının, "2017 - İslam həmrəyliyi ili: dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransda nitqinin mətnləri, Azərbaycanın gənc alimlərinin I qurultayının, Azərbaycan memarlarının XIX qurultayının iştirakçılarına məktubları, XXIII Beynəlxalq "BakuTel-2017" Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgisi ilə tanışlığını əks etdirən informasiyalar daxil edilib.

"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 84-cü kitabında, həmçinin dövlətimizin başçısının Ağcabədi, Sabirabad, Quba rayonlarına, Sumqayıt şəhərinə səfərlərinə, bölgələrdə iqtisadi, sosial, mədəniyyət obyektlərinin açılışlarında iştirakına, ictimaiyyət nümayəndələri ilə görüşlərinə dair materiallarla da tanış olmaq mümkündür.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 84-cü kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

**AZƏRTAC**

### Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki Tərəvəzçilik Elmi Tədqiqat İnstitutunun fəaliyyətinin təkmilləşdirilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki elmi tədqiqat institutlarının fəaliyyətinin gücləndirilməsi, elmi nəticələrin istehsalata tətbiqinin daha da genişləndirilməsi və bu sahədə idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusu olan Tərəvəzçilik Elmi Tədqiqat İnstitutuna çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş publik hüquqi şəxsin fəaliyyətə başlaması və nizamnamə fondunun formalaşdırılması üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinə 1 (bir) milyon manat ayrılsın.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*3.1.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*3.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*3.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*3.4.* bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş publik hüquqi şəxsin:

*4.1.* təsisçisinin "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində qeyd edilən səlahiyyətlərini həyata keçirsin;

*4.2.* nizamnaməsini, optimallaşdırma həyata keçirilməklə strukturunu, işçilərinin say həddini iki ay müddətində təsdiq etsin;

*4.3.* dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra üç gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Vergilər Nazirliyinə müraciət etsin.

**5.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

*5.1.* bu Fərmanın 2-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin;

*5.2.* "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 dekabr tarixli 431 nömrəli Fərmanının 1.1.3.9-cu yarımbəndi üzrə Tərəvəzçilik Elmi Tədqiqat İnstitutuna nəzərdə tutulmuş vəsaitin qalığının müvafiq olaraq bu Fərmanın 1-ci hissəsində göstərilmiş publik hüquqi şəxsin hesabına köçürülməsi ilə bağlı tədbirlər görsün və həmin publik hüquqi şəxsin saxlanılması üçün tələb olunan vəsaiti növbəti illərdə dövlət büdcəsinin layihəsində nəzərdə tutsun.

**6.** Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi Tərəvəzçilik Elmi Tədqiqat İnstitutunun istifadəsində olan dövlət əmlakının bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş publik hüquqi şəxsin balansına verilməsi ilə bağlı tədbirlər görsün.

**7.** Bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş publik hüquqi şəxs "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu öz fəaliyyətini davam etdirsin.

**8.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 iyun 2019-cu il.**

# Birinci vitse-prezident Mehriban Əliyeva sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsində olub

**İyunun 20-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Abşeron rayonunun Saray qəsəbəsində 2 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsində olublar.**

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva 2 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsində uşaqlarla görüşüb, onların yaşayış şəraiti, uşaqlara göstərilən sosial və reabilitasiyayönümlü xidmətlərlə tanış olublar.

Mehriban Əliyeva və Leyla Əliyeva müəssisədəki uşaqların əl işlərindən ibarət sərgiyə baxıblar.

Sağlamlıq imkanları məhdud uşaqların funksional çatışmazlıqlarının aradan qaldırılması, onların bacarıqlarının inkişaf etdirilməsi üçün aparılan reabilitasiya işlərindən biri də onların yaradıcılıq potensiallarının inkişafıdır. Uşaqlar muncuqlarla, plastilinlə müxtəlif əl işləri hazırlayır, rəsmlər çəkir, konstruktor oyunları ilə məşğul olurlar. Müəssisənin sakinləri özlərinin hazırladıqları əl işlərini Mehriban Əliyevaya və Leyla Əliyevaya hədiyyə ediblər.

Qeyd edək ki, bu müəssisə 2010-cu ildə Heydər Əliyev Fondunun dəstəyi ilə yenidən qurulub.













Hazırda burada 5-18 yaş arasında 170-dək uşaq yaşayır. Onlar əsasən uşaq serebral iflici, autizm, daun sindromu, fiziki və əqli inkişafdan geriqalma, mərkəzi sinir sisteminin zədələnməsi - ense-folopatiya, parez kimi xəstəliklərdən əziyyət çəkirlər.

Birinci vitse-prezident sosial xidmət müəssisəsinin sakinlərinin əhvalı ilə maraqlanıb, onların müalicəsinin müsbət nəticələr verdiyinin şahidi olub. Belə ki, müəssisənin sakinlərindən biri - Xəyalə Hüseynova Mehriban Əliyeva ilə söhbət zamanı Azərbaycan və ingilis dillərində "əlillik qüsur deyil və yaşamaq, yaratmaq üçün məhdudiyyət ola bilməz" dedi. Azərbaycanın Birinci vitse-prezidenti uşaqların arzularını dinləyib, yenidən onların yanına qonaq gələcəyini bildirib, onlara uğurlar arzulayıb. Mehriban Əliyeva uşaqlarla birlikdə kitab oxuyub, nəşrdəki şəkilləri müzakirə edib. Uşaqlar Mehriban Əliyevaya və Leyla Əliyevaya öz bacarıqlarını nümayiş etdiriblər. Onlar Prezident İlham Əliyevin Sərəncamı ilə bu ilin "Nəsimi İli" elan olunduğunu bildirərək, şairin şeirlərini səsləndiriblər, mahnılar, rəqslər ifa ediblər.

Sağlamlıq imkanları məhdud uşaqlara dövlət qayğısı ildən-ilə artır. Dövlətimizin başçısının 2019-cu il 15 aprel tarixli Fərmanı ilə həmin uşaqlar üçün aylıq sosial müavinətin məbləği əhəmiyyətli şəkildə artırılmaqla, onlara qulluq edənlər üçün Prezidentin aylıq təqaüdü də təsis olunub. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dəstəyi nəticəsində Bakıda Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqların Dövlət Reabilitasiya Müəssisəsi istifadəyə verilib. Bu müəssisədə uşaqlar üçün müasir tələblər səviyyəsində, nümunəvi yaşayış və reabilitasiya şəraiti yaradılıb.

Saray qəsəbəsindəki 2 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsində 12 reabilitasiya otağı fəaliyyət göstərir və onlarda müasir dövrdə prioritet olan yeni reabilitasiya metodları - aktiv terapiya, oyun, ünsiyyət, musiqi, rəqs və digər terapiya növləri və hər bir uşaqla fərdi inkişaf planı əsasında işlər aparılır.

Sonda müəssisəyə Heydər Əliyev Fondunun hədiyyələri təqdim edilib.

**AZƏRTAC**

# Yeni dövrün başlanğıcı

**1993-cü il iyunun 15-i Azərbaycan xalqının həyatında yeni dövrün başlanğıcıdır. Dövlətçiliyimizin formalaşmasında misilsiz xidmətlər göstərmiş Heydər Əliyevin həmin gün ölkənin qanunvericilik orqanına sədr seçilməsi ilə ikinci dəfə siyasi hakimiyyətə gəlməsi şanlı tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuşdur. Vətənini, xalqını sevən, odövrkü çətin və ağrılı günlərin dəhşətlərini yaşayan insanlar üçün 15 iyun əsl qurtuluş tarixi, Azərbaycanda ölüm-dirim mübarizəsinin tarixidir.**

Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəlində Azərbaycan həlli çətin görünən problemlə üzləşmişdi. Azərbaycanlıların öz doğma obalarından didərgin düşməsi, Dağlıq Qarabağ münaqişəsi, torpaqlarımızın dalbadal işğalı, separatizm meyilləri - bütün bunlar o dövrün adi mənzərəsi idi. Xaos və özbaşınalıq, vətəndaş müharibəsi təhlükəsi insanlarda ölkənin gələcəyi ilə bağlı böyük suallar doğurmuşdu. Belə bir vaxtda hamı Heydər Əliyevin yenidən siyasi olimpə qayıdışını səbirsizliklə gözləyir və bu görkəmli dövlət xadiminə böyük ümidlər bağlayırdı. Dövlətçiliyimizin müqəddəratının həll edildiyi 1993-cü ilin vahiməli iyun günlərində xalqın təkidli tələbi ilə Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı Azərbaycanı məhv olmaq fəlakətindən, Xalq Cümhuriyyətinin aqibətindən xilas etdi.

Ulu öndər bütün şüurlu həyatını vətəninə, xalqına sərf etmişdir. Bu tarixi simanın Azərbaycana ilk dəfə rəhbərlik etdiyi 1969-1982-ci illər milli tariximizə tərəqqi illəri kimi daxil olmuşdur. Heydər Əliyev hələ o vaxt Azərbaycanı müstəqil ölkə kimi görürdü. Keçmiş İttifaq rəhbərliyində işlədiyi illərdə də bu uzaqgörən siyasətçi Azərbaycanın bütün sahələrdə daha da qüdrətlənməsi üçün əlindən gələni əsirgəmirdi. İttifaq rəhbərliyindən uzaqlaşdıqdan sonra da o, həmişə vətəni, xalqı ilə birlikdə olmuşdur. 1990-cı ilin Qanlı yanvar hadisələrini kəskin tənqid edən Heydər Əliyev Naxçıvana dönmüş, tezliklə Azərbaycan Ali Sovetinə və Naxçıvan Ali Məclisinə deputat seçilmişdi.

Təəssüf ki, müstəqilliyimizin ilk illərinə təsadüf edən 1992-1993-cü illər müasir tariximizdə hərcmərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xarakterizə olunur. Bu dövrdə ölkədə separatçı qüvvələrin fəallaşması, Gəncədə qardaş qanının tökülməsi ilə ölkədə vətəndaş müharibəsinin başlanması və respublikanın parçalanma təhlükəsinin artması nəticəsində xalqın və müstəqil Azərbaycan dövlətinin gələcəyi sual altına qoyulmuşdu. Bax belə bir ümidsiz siyasi, sosial, iqtisadi və hərbi şəraitdə xalqın təkidli tələbi və iqtidarın məcburiyyət qarşısında qalıb davamlı xahişi ilə Heydər Əliyev Bakıya qayıtmışdı. Onun bu qayıdışının dövlətçiliyimiz üçün misilsiz faydası oldu. Bu, sözün həqiqi mənasında, Azərbaycan dövlətinin və xalqımızın qurtuluşu idi. Heç də təsadüfi deyil ki, sonralar xalqın müxtəlif təbəqələrinin nümayəndələri Milli Məclisə müraciət edərək bu günün Azərbaycan xalqının "Milli Qurtuluş Günü" elan olunmasını tələb edirdilər.

1997-ci il iyunun 27-də Milli Məclisin qərarı ilə 15 iyun - Azərbaycan xalqının Milli Qurtuluş Günü elan olundu. Milli Məclisin həmin tarixi qərarında deyilir: "Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması, əslində, onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi".

Azərbaycan dövlətini tarixi burulğanlardan xətərsiz çıxarıb xilas etmək, sabit və ardıcıl inkişaf yoluna çıxarmaq üçün böyük siyasi iradə və qətiyyət, çevik və dərin ağıl, zəngin təcrübə, başlıcası isə xalqa tükənməz sevgi tələb olunurdu. Ulu öndər dünyanın güc mərkəzlərinin iradəsinə qarşı çıxaraq, onların Azərbaycan üçün hazırladıqları məkrli planları alt-üst etdi, xalqımızı və dövlətimizi təhlükələrdən xilas edərək ardıcıl inkişaf dövrünə çatdırdı. Söz düşmüşkən qeyd edim ki, hələ 17 noyabr 1990-cı ildə ilk dəfə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının qaldırılmasına nail olan Heydər Əliyev cümhuriyyət tariximizə varislik siyasəti gətirərək müstəqil Azərbaycan Respublikasının tezliklə bərpa olunacağını bəyan etmişdi.

Mübaliğəsiz demək olar ki, Heydər Əliyevin Ali Sovetin Sədri vəzifəsində çalışdığı qısa zaman kəsiyində Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət kimi gələcək inkişafının təməli qoyuldu. Heydər Əliyev parlamentin dövlətçilik sistemində yerini və rolunu çox yaxşı bilir və ali məqsədlər naminə qanunverici orqanın imkanlarından maksimum yararlanmaq bacarığı göstərirdi. Ulu öndər ölkəyə ilk dəfə rəhbərlik etdiyi illərdə, sonralar Ali Sovetin Sədri olduğu dövrdə böyük məharətlə parlamentin gücünü tarixi vəzifələrin həllinə yönəldə bilmişdir. Heydər Əliyev ölkə başçısı seçildikdən sonra da parlamentlə sıx təmasda fəaliyyət göstərmiş, dəfələrlə Milli Məclisin tribunasından çıxış edərək, ölkə üçün taleyüklü məsələlərə öz münasibətini bildirmişdir.

Tarixi 15 iyun günündən sonra ulu öndərin Naxçıvanda başladığı milli qurtuluş savaşının əsl zəfər yürüşü başlandı. Onun təşəbbüsü ilə parlamentdə müstəqil dövlətimiz üçün həyati əhəmiyyətli qanunlar qəbul olundu. Tezliklə separatçıların ölkəni parçalamaq kimi məkrli niyyətlərinə layiqli cavablar verildi. Ordu quruculuğu sahəsində mühüm işlər görüldü, cəbhədə atəşkəs elan olundu.

Heydər Əliyevin rəhbərliyi ilə respublikamız dünyanın tanınmış neft şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzaladı, qədim İpək yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. İqtisadiyyatın dirçəldilməsi üçün konkret addımlar atıldı, sənayedə, kənd təsərrüfatında islahatlar aparıldı, torpaq kəndliyə verildi. Ölkəmiz tezliklə vahid Avropa ailəsinə qəbul edildi, cəmiyyətin demokratikləşməsi, insan hüquq və azadlıqlarının qorunması sahəsində səmərəli tədbirlər həyata keçirildi. Müstəqil Azərbaycanın yeni Konstitusiyası qəbul edildi, ilk parlament və bələdiyyə seçkiləri keçirildi.

Onun heyrətamiz xilaskarlıq missiyası nəticəsində Azərbaycan tezliklə təlatümlərdən, sarsıntılardan çıxaraq gələcəyə inamla baxan bir dövlətə çevrildi. Heydər Əliyevin ikinci dəfə ölkəmizə rəhbərlik etdiyi 1993-2002-ci illəri əhatə edən dövr Azərbaycan xalqının həyatında baş verən taleyüklü mərhələni - müstəqilliyimizin möhkəmlənməsi dövrünü əhatə edir.

Prezident İlham Əliyev ulu öndərin Azərbaycan xalqı və dövləti qarşısında göstərdiyi xidmətlər barədə belə deyir: "1993-cü ildən başlanmış və bu günə qədər davam edən iqtisadi və siyasi islahatlar ölkəmizin dünya birliyinə layiqli üzv kimi daxil edilməsində çox mühüm rol oynadı. Azərbaycanda güclü sosial siyasətin əsasları da məhz o illərdə qoyulubdur. Ona görə ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri unudulmazdır, əvəzolunmazdır və onlar tarixi əhəmiyyət kəsb edir".

Sonrakı mərhələdə əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş ölkənin milli inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurlu davamı üçrəngli bayrağımızı zirvələrə yüksəltdi. Azərbaycan böyük dövlətlərin yüzillər ərzində keçdiyi yolu qısa zaman kəsiyində qət edərək böyük nailiyyətlərə imza atdı. Ölkənin daxili və xarici siyasət konsepsiyası beynəlxalq hüquq normalarına uyğun quruldu, dövlətçilik ənənələri zənginləşdirildi. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ölkənin neft strategiyasının reallaşmasına imkan yaratdı. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin fəaliyyətə başlaması, Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilişi ölkənin böyük strateji uğuru oldu. Azərbaycan bölgədə lider dövlətə çevrildi.

Hazırda respublikamızın iqtisadi inkişafı hər bir sahədə innovasiyanın və müasir texnologiyanın tətbiqinə əsaslanmaqla kompleks inkişafı təmin edən strategiya üzrə həyata keçirilir. Bu məqsədlə Prezidentin 2016-cı il 16 mart tarixli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" sərəncamına uyğun olaraq, 11 istiqamət üzrə strateji yol xəritələri hazırlanmış və dövlət başçısının fərmanı ilə təsdiq edilmişdir.

Bu gün ölkəmizin haqq səsi dünyanın mötəbər kürsülərindən eşidilir. Bakı nüfuzlu beynəlxalq tədbirlərə evsahibliyi edir. Bunu son altı ildə Azərbaycanda "Eurovision", I Avropa Oyunları, "Formula-1" və İslam Həmrəyliyi Oyunları kimi beynəlxalq tədbirlərin keçirilməsi təsdiq edir. Bu musiqi və idman yarışlarının yüksək səviyyədə təşkil olunması və keçirilməsi Azərbaycanın beynəlxalq miqyasda nüfuzunun daha da yüksəlməsinə növbəti töhfə və dəstək oldu. Həmin günlərdə paytaxtımıza təşrif buyuran xarici vətəndaşlar, turistlər Azərbaycandakı inkişafı öz gözləri ilə gördülər, ölkəmizi daha yaxından tanımaq imkanı əldə etdilər. Bakının qonağı olacaq əcnəbilər təkcə bu mahnı müsabiqəsinin deyil, həmçinin zəngin tarixi izlərin yaşadığı doğma Bakımızın gözəlliyinin, müxtəlif mədəniyyətlərə məxsus elementləri ahəngdar şəkildə özündə birləşdirən adət və ənənələrimizin və azərbaycanlıların səmimi qonaqpərvərliyinin şahidi oldular. Bu mənada sözügedən tədbirlərin hər biri Azərbaycanın inkişafının və turizm potensialının beynəlxalq miqyasda daha yaxından tanıtımı baxımından böyük hadisəyə çevrildi. Digər tərəfdən, bu cür tədbirlərə yüksək səviyyədə ev sahibliyi etməklə Azərbaycan bir daha sübut etdi ki, beynəlxalq tədbirlərin keçirilməsi üçün əsas ünvanlardan biridir.

Heydər Əliyevin yaratdığı möhkəm təməl üzərində inkişaf edən Azərbaycan bu gün geniş bir bölgədə söz sahibi olan güclü bir dövlətdir. Ölkəmizin getdikcə daha da artan imkanları qarşıya qoyulan hər bir mürəkkəb vəzifəni uğurla yerinə yetirməyə imkan yaradır. Azərbaycan Avropanın enerji təhlükəsizliyinə böyük töhfələr verməklə yanaşı, həm də Avropa ilə Asiyanı, Şimalla Cənubu bir-birinə sıx bağlayan nəhəng transmilli layihələrin həyata keçirilməsində həlledici rol oynayır. "Əsrin müqaviləsi"nin daha bir neçə on il uzadılması, TANAP qaz kəmərinin istifadəyə verilməsi fikirlərimizi bir daha təsdiqləyir.

Bəli, ulu öndərin qurucusu olduğu Azərbaycan bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə dünya çapında özünü təsdiqləmiş bir ölkədir.

Prezident İlham Əliyev təkcə Cənubi Qafqazda və yaxın regionda deyil, bütün dünyada tanınan, seçilən və qəbul edilən siyasi liderlərdəndir. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi ötən 16 ilə yaxın dövr ərzində Azərbaycan çox mühüm keyfiyyət dəyişiklikləri yaşayıb: ölkə kompleks inkişaf edib, beynəlxalq nüfuzu yüksəlib, maliyyə imkanları çoxalıb, insanların sosial rifahı yüksəlib. Beləliklə, Prezident İlham Əliyev Azərbaycanı Heydər Əliyevin arzuladığı bir səviyyəyə çatdırıb, ölkəmiz regionun lider dövlətidir.

**İlqar ƏHMƏDOV,**
**"Avita" şirkətinin rəhbəri.**

# Nazirlər Kabinetinin növbəti iclası keçirilib



**İyunun 20-də Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclası açan Baş Nazir Novruz Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən ardıcıl və davamlı islahatlardan danışıb. Azərbaycanda reallaşdırılan yeni iqtisadi islahatlar nəticəsində ölkəmizin maliyyə imkanlarının əhəmiyyətli dərəcədə artdığını bildirən Novruz Məmmədov deyib: “Bu, imkan verir ki, digər məsələlərlə yanaşı, ölkə vətəndaşlarının rifah halının daha da yaxşılaşdırılması istiqamətində addımlar atılsın. Bu ilin ilk yarısında dövlətimizin başçısının imzaladığı sosialyönümlü fərmanlar və sərəncamlar 3 milyon vətəndaşımızı əhatə edib. Prezident İlham Əliyevin iyunun 18-də imzaladığı sərəncamlar bir daha göstərdi ki, Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində işlər uğurla davam etdirilir. Prezident İlham Əliyevin dövlət qulluqçularının, hərbi qulluqçuların, hüquq-mühafizə orqanı əməkdaşlarının və digər xüsusi rütbəli şəxslərin, müəllimlərin, habelə dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan işçilərin əməkhaqlarının, eləcə də minimum əməkhaqqının artırılması barədə imzaladığı sərəncamlar geniş əhali kateqoriyasının rifah halının daha da yüksəldilməsinə imkan yaradacaq”.

Bu gün Azərbaycanın dünyanın qabaqcıl dövlətləri ilə ikitərəfli və çoxtərəfli əsasda əlaqələr qurduğunu, xalqımızın maraqlarının təmin olunduğunu, milli dövlətçilik ideyalarının qorunub inkişaf etdirildiyini bildirən Novruz Məmmədov bütün bu uğurların arxasında Prezident İlham Əliyevin yüksək peşəkarlığının və siyasi səriştəsinin dayandığını söyləyib.

Sonra Novruz Məmmədov iclasın gündəliyi barədə məlumat verib.

Bildirilib ki, iclasın gündəliyinə “Qaz təchizatı sahəsində mövcud durum, problemlərin aradan qaldırılması və sistemin dayanıqlı inkişafının təmin edilməsi üzrə kompleks tədbirlər haqqında”, “Ölkə əhalisinin keyfiyyətli içməli su və kanalizasiya xidmətləri ilə təmin edilməsi sahəsində görülən işlər, xidmətin keyfiyyətinin yüksəldilməsi və infrastrukturunun daha da təkmilləşdirilməsi ilə bağlı qarşıda duran cari və perspektiv məsələlər haqqında” və “2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınması işlərinin gedişi haqqında” məsələlər daxildir.

Təbii enerji qaynaqlarının mühüm seqmentini təşkil edən qaz sektorunun Azərbaycanın sosial-iqtisadi həyatında vacib rola malik olduğunu bildirən Baş Nazir qeyd edib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan enerji siyasətinin uğurla icrası nəticəsində ölkəmiz bu sahədə ciddi nailiyyətlər qazanıb. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rola malik ölkədir. Prezident İlham Əliyevin “Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında” 2019-cu il 29 may tarixli Sərəncamında Energetika Nazirliyinə “Azərbaycan Respublikasının energetika sektorunun uzunmüddətli inkişaf Strategiyası”nın layihəsinin hazırlanması tapşırılıb.

Baş Nazir bildirib ki, Prezident İlham Əliyev Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında “Azəriqaz” İstehsalat Birliyinin fəaliyyətində yol verilən nöqsanları və bu sahədə olan bir sıra problemləri qeyd edib, çatışmazlıqların aradan qaldırılması, şəffaflığın təmin olunması ilə bağlı tapşırıqlarını verib.

Novruz Məmmədov deyib ki, ölkəmizdə əhalinin keyfiyyətli içməli su və kanalizasiya xidmətləri ilə təmin edilməsi istiqamətində bu günə qədər bir sıra mühüm layihələr icra olunub. Bununla yanaşı, istehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin artırılması, su təchizatı xidmətlərinə görə ödəniş səviyyəsinin yüksəldilməsi, istehlak edilən suyun uçotunun dəqiq aparılması və itkilərin qarşısının alınması məqsədilə müvafiq suölçən cihazların quraşdırılması ilə bağlı işlərin davam etdirilməsi qarşıda duran prioritet məsələlərdir.

Baş Nazir əhalinin siyahıyaalınmasına hazırlıqla bağlı görülən işlərdən danışaraq siyahıyaalma məntəqələrinin komplektləşdirilməsinin, zəruri avadanlıqlarla təchiz olunmasının və bununla bağlı əhalinin məlumatlandırılması işlərinin vacibliyini vurğulayıb.

Sonra Energetika naziri Pərviz Şahbazovun, Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayevin, “Azərsu” ASC-nin sədri Qorxmaz Hüseynovun, Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayevin, Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovun gündəlikdəki məsələlərlə bağlı məruzələri dinlənilib.

İclasda mövzularla bağlı çıxışlar olub, müxtəlif təkliflər səsləndirilib.

**AZƏRTAC**

# Bakıda QDİƏT Parlament Məclisi Baş Assambleyasının 53-cü plenar sessiyası işə başlayıb





**İyunun 20-də Milli Məclisdə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisi (QDİƏT PM) Baş Assambleyasının ikigünlük 53-cü plenar sessiyası öz işinə başlayıb.**

AZƏRTAC xəbər verir ki, açılış mərasimində QDİƏT PM-in fəaliyyətdə olan sədri, Milli Məclisin spikeri Oqtay Əsədov giriş nitqi söyləyib.

Oqtay Əsədov sessiyaya təşrif buyurmuş beynəlxalq təşkilatların nümayəndələrini, diplomatik korpusun təmsilçilərini və digər qonaqları Azərbaycan parlamentində görməkdən məmnun olduğunu bildirib.

Sədr qeyd edib ki, müasir dünyada istər qlobal, istərsə də regional problemlərin həllində parlamentlərin həm ikitərəfli, həm də çoxtərəfli formatda iş birliyi mühüm rol oynayır. Bu baxımdan 26 il öncə yaranmış Parlament Assambleyası Qara dəniz bölgəsinin əmin-amanlıq və çiçəklənmə zonasına çevrilməsi məqsədilə müxtəlif təşəbbüslərin irəli sürülməsi və həyata keçirilməsi baxımından çox böyük potensiala malik olduğunu sübuta yetirib.

Parlament Assambleyasının plenar sessiyasının 7 il sonra yenidən Bakıda keçirilməsinə və Qara dəniz bölgəsində energetika məsələsinə həsr olunmasına diqqət yönəldən Oqtay Əsədov deyib ki, bunun rəmzi mənası var: bu 7 il Azərbaycanın yaxından iştirakı ilə həyata keçirilən nəhəng nəqliyyat-enerji layihələrinin köməyi ilə bölgənin iqtisadi mənzərəsinin dəyişdirilməsində mühüm bir dövr təşkil edib.

Milli Məclisin sədri vurğulayıb ki, Qara dəniz iqtisadi məkanında beynəlxalq və regional əməkdaşlığın gözəl nümunələri olan Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum və TANAP qaz kəmərləri, digər transmilli layihələr nəinki bölgəmizin, həm də Avropa qitəsinin yeni iqtisadi xəritəsinin formalaşmasında mühüm rol oynayır, onun enerji təhlükəsizliyinin təmin edilməsinə töhfə verir. Bu layihələr arasında 2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin və reallaşdırılmaqda olan TAP qaz kəmərinin əhəmiyyəti xüsusi qeyd edilməlidir.

Qonaqların nəzərinə çatdırılıb ki, Azərbaycan Respublikası Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və onun Parlament Assambleyası çərçivəsində tərəfdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət verir. Xüsusilə, parlamentlərarası əməkdaşlığın genişlənməsi və dərinləşməsi təşkilatın üzvü olan dövlətlərin qarşıya qoyduqları iqtisadi məqsədlərin əldə edilməsi, o cümlədən dayanıqlı energetikanın inkişafı naminə ikitərəfli və çoxtərəfli əməkdaşlığa kömək göstərə bilər.

“Regionda yaşayan xalqların firavan gələcəyinin qurulmasına yönələn əməkdaşlıq strategiyamız bölgəmizin yaşayış üçün güvənli bir yerə çevrilməsinə xidmət edir. Təəssüf ki, regionumuzun bir neçə dövlətinin ərazisində mövcud olan silahlı münaqişələr bölgədə əməkdaşlıq imkanlarını ciddi şəkildə məhdudlaşdırır. Azərbaycan Respublikası 25 ildən artıqdır ki, Ermənistanın silahlı təcavüzündən və ərazi işğalından əziyyət çəkir. Biz əminik ki, bütün bu münaqişələr beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normaları, xüsusən onların arasında başlıca prinsip olan dövlətlərin sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyü prinsipi əsasında tezliklə həllini tapacaq”, - deyə Milli Məclisin sədri qeyd edib.

Oqtay Əsədov QDİƏT PM-in bu mötəbər toplantısının işinə uğurlar, bölgəmizə sülh, tərəqqi və əmin-amanlıq arzulayıb.

Sonra iclasda Bolqarıstan Milli Assambleyasının sədri Tsveta Karayançeva çıxış edib.

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun və Bolqarıstanın Xarici İşlər naziri Yekaterina Zaxariyevanın sessiyaya ünvanlanmış təbrik məktubları oxunub. Hər iki məktubda QDİƏT PM-in fəaliyyəti yüksək dəyərləndirilib. Hazırkı tədbirə ev sahibliyi edən Milli Məclisə təşəkkür bildirilib.

Tədbirdə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

QDİƏT PM-in Fəxri medalları ilə təltif mərasimində sədr Oqtay Əsədov ötən il 25 yaşını qeyd edən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının inkişafında bütün üzv ölkələrin milli nümayəndə heyətlərinin rolunu və əməyini yüksək qiymətləndirib. Qurumun fəaliyyətində fərqlənmiş Otari Danelia (Gürcüstan), Mixail Yemelyanov (Rusiya), Cemal Öztürk (Türkiyə), Refat Çubarov (Ukrayna), Ramazan Can (Türkiyə), David Saqanelidze (Gürcüstan), Georq Vlad Nistor (Rumıniya), Ramaz Nikolaşvili (Gürcüstan) və Eldar Quliyev (Azərbaycan) Fəxri medala layiq görülüblər. Təltif edilənlərin xatirə şəkilləri, Milli Məclisin binası qarşısında sessiya iştirakçılarının ailə fotosu çəkdirilib.

Fasilədən sonra QDİƏT PM-in 53-cü plenar sessiyası işini davam etdirib.

Türkiyə nümayəndə heyətinin rəhbəri Cemal Öztürkün sədrlik etdiyi birinci iclasda qurumun ötən payız keçirilmiş 52-ci plenar iclasının protokolu təsdiqlənib.

Gürcüstanın Acarıstan Muxtar Respublikasının Ali Sovetinə QDİƏT PM-in tərəfdaşı statusu verilib. QDİƏT-in və bu qurumun Ticarət və İnkişaf Bankının fəaliyyətlərinə dair məruzələr dinlənilib.

Sonra birinci iclas öz işini QDİƏT PM-in fəaliyyətdə olan sədri, Milli Məclisin Sədri Oqtay Əsədovun sədrliyi ilə davam etdirib. Təşkilati məsələlərə baxılıb. Prosedur qaydalarına müvafiq olaraq Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin sədr müavinləri seçilib.

QDİƏT Parlament Məclisinin hazırkı Baş katibi Asəf Hacıyev gizli səsvermə zamanı böyük səs çoxluğu ilə yenidən qurumun Baş katibi postuna layiq görülüb. O, qarşıdakı 5 il müddətində bu vəzifəni icra edəcək.

Seçkidən sonra Asəf Hacıyev çıxış edərək göstərilən etimada görə həmkarlarına təşəkkür edib, indiyədək görülmüş işlər və gələcək planlar barədə danışıb. O, QDİƏT-in üzvü olan Azərbaycanın siyasətinə verilən yüksək qiymətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin Baş Assambleyasına sədrlik 6 ay müddətinə Azərbaycandan Bolqarıstana keçib. Milli Məclisin Sədri Oqtay Əsədov rəmzi çəkici Bolqarıstan Milli Assambleyasının Sədri Tsveta Karayançevaya təqdim edib. Estafeti qəbul edən T.Karayançeva çıxışında vurğulayıb ki, Azərbaycanın Assambleyadakı 6 aylıq sədrliyi çox məhsuldar keçib və qurumun inkişafına layiqli töhfələr verib. Bildirib ki, 54-cü plenar sessiya bu ilin noyabrında Sofiyada olacaq.

QDİƏT PM-in yeni sədri Tsveta Karayançeva bəyan edib ki, Azərbaycan Prezidenti İlham Əliyev təşəbbüskarı olduğu irimiqyaslı enerji layihələri, neft-qaz kəmərləri və infrastruktur layihələrinə görə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin “Şərəf” medalına layiq görülüb. İclasda həmin ali mükafat Azərbaycan parlamentinin rəhbərinə təqdim olunub.

Daha sonra QDİƏT PM-in 53-cü plenar sessiyasının ikinci iclası keçirilib. Bolqarıstan nümayəndə heyətinin rəhbəri Petar Kanevin sədrlik etdiyi iclasda “QDİƏT regionunda dayanıqlı energetikanın inkişafında parlamentlərin rolunun möhkəmləndirilməsi” mövzusunda geniş diskussiya aparılıb. İqtisadi, ticarət, texnoloji və ekoloji məsələlər gündəmdə olub. Məruzələrə dair tövsiyələr qəbul edilib. Yekunda parlament assambleyalarının və beynəlxalq təşkilatların nümayəndələri fikirlərini bölüşüblər.

QDİƏT PM-in 53-cü sessiyası işini iyunun 21-də davam etdirəcək.

**AZƏRTAC**

# Bakıda Ümumdünya Qaçqınlar Günü ilə bağlı tədbir keçirilib





**İyunun 20-də Bakıda Ümumdünya Qaçqınlar Günü ilə bağlı tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Muğam Mərkəzində təşkil edilən tədbirin iştirakçıları əvvəlcə qaçqınların və məcburi köçkünlərin həyatından bəhs edən fotosərgiyə baxıblar.

Tədbiri açan BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Quido Ambroso tədbirin təşkilində göstərdiyi dəstəyə görə Azərbaycan Hökumətinə və Heydər Əliyev Fonduna minnətdarlığını bildirib.

Sonra BMT-nin qaçqınlar üzrə ali komissarı Filippo Qrandinin videomüraciəti nümayiş etdirilib.

Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Əhmədov tədbirdə çıxış edərək bildirib ki, qaçqın və məcburi köçkün problemi bu gün dünyanı narahat edən məsələdir. Bu gün dünyada 70 milyondan çox qaçqın və məcburi köçkün var. Bu problemin həlli üçün dünya dövlətləri, siyasətçilər ciddi səy göstərməlidirlər. Ölkələr qaçqın və məcburi köçkünlərə yardımlar edirlər. Bu, yaxşı haldır. Ancaq münaqişənin həlli kökündən həll olunaraq qaçqınlığa, köçkünlüyə son qoyulmalıdır. Məhz müharibələrin səbəbidir ki, dünyada qaçqın ordusunun sayı artır.

Baş Nazirin müavini bildirib ki, Azərbaycan 30 ildən çoxdur bu problemlə üz-üzədir. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Azərbaycanı çətin vəziyyətə salan bu məsələyə vaxtilə lazımi diqqətin yetirilməməsi səbəbindən indi bütün dünya bu ağır problemlə üzləşib. Bu gün bu problemi yaradan səbəblər araşdırılmalı, məsələnin həlli istiqamətində birgə səylər göstərilməlidir. Azərbaycan dövlətinin böyük səyləri nəticəsində bu gün ölkəmizdə qaçqınların və məcburi köçkünlərin sosial vəziyyəti xeyli yaxşılaşıb. Lakin hələ də onlar öz yurd-yuvalarına qayıtmayıblar. “Düşünürəm ki, Azərbaycanın haqq səsini vaxtilə eşitməyənlər bu gün bizim çağırışımızı dinləyəcəklər. Bizim hədəfimiz işğal olunmuş torpaqlarımızı azad etmək və qaçqın, köçkün düşən vətəndaşlarımızı öz yurd-yuvalarına qaytarmaqdır”, - deyə Əli Əhmədov qeyd edib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev deyib ki, bugünkü tədbirin keçirilməsində əsas məqsəd bu problemin nə qədər vacib olduğunu bir daha diqqətə çatdırmaqdır. Azərbaycanda qaçqın və məcburi köçkün problemi ilə bağlı əsaslı işlər görülür. Lakin bu problem bütün dünyada böyük narahatlıq yaradır. Aidiyyəti təşkilatlar qaçqın və məcburi köçkün probleminin həlli ilə bağlı birgə çalışmalıdırlar.

R.Rzayev Azərbaycanda məcburi köçkünlərə yaradılan sosial imkanlardan danışıb. O qeyd edib ki, Prezident İlham Əliyev məcburi köçkünlərin sosial rifahının yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirib. Ancaq buna baxmayaraq, ölkə rəhbərliyi bu gün onların öz yurd-yuvalarına qayıtmaları üçün çalışır.

Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov bildirib ki, qaçqın, köçkün problemi həqiqətən də qlobal problemdir və ciddi yanaşma tələb edir. Təəssüf ki, bu problem dünya miqyasında getdikcə artır. Dünyada cərəyana edən siyasi proseslər 70 milyon insana ağır dərəcədə təsir edir. Problemin daha da dərinləşməməsi üçün ciddi işlər görmək lazımdır. Böyük dövlətlər ikili standartları və məsələyə laqeydliyi aradan qaldırmalıdırlar. Azərbaycan qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli məsələsində nümunədir. Lakin məsələ bununla bitmir. Bu insanlar öz doğma torpaqlarına qayıtmalıdırlar.

Sonra Dövlət Miqrasiya Xidmətinin Ümumdünya Qaçqınlar Günü ilə bağlı hazırladığı videoçarx nümayiş olunub.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai qeyd edib ki, qaçqın və məcburi köçkün problemi dünya üçün ciddi təhlükədir. BMT-nin iqlim dəyişikliyinə və digər problemlərə qarşı mübarizə apardığı bir dövrdə ən çox diqqət qaçqın və məcburi köçkünlərin üzərinə yönəlməlidir. Bu il dünyada öz yurd-yuvalarından didərgin düşən insanların sayı ən yüksək həddə çatıb. Bu, bizi problemi yaradan səbəblər barədə dərindən düşünməyə vadar edir. Məsələnin həlli üçün bütün dövlətlər və aidiyyəti təşkilatlar birgə səy göstərməlidirlər.

Aidiyyəti dövlət qurumları, o cümlədən hüquq mühafizə orqanları, nazirliklər, komitələr tərəfindən aylıq çərçivəsində həyata keçirilən tədbirlər demək olar ki, əhalinin bütün qruplarını əhatə etmiş və onların fəal iştirakları ilə keçirilmişdir. Ümumtəhsil məktəblərində, orta ixtisas və ali təhsil ocaqlarında, uşaq evləri və internat müəssisələrində, icmalarda, müxtəlif dövlət qurumlarının, hüquq mühafizə orqanlarının Akademiyalarında, hərbi hissələrdə, cəzaçəkmə müəssisələrində insan hüquqlarına dair seminarlar, treninqlər və digər maarifləndirmə tədbirləri təşkil olunmuş, dövlət qurumlarının mətbu orqanları olan qəzet və jurnallarında insan hüquqlarını təbliğ edən məqalələr və yazılar dərc edilmişdir.

Azərbaycan Respublikasının prokurorluq orqanlarına ilk dəfə qulluğa qəbul edilən namizədlərin peşə fəaliyyətinə buraxılması məqsədilə icbari təlimlərin təşkili zamanı insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı, beynəlxalq konvensiyalarla əlaqədar mövzulara xeyli yer ayrılmış, eyni zamanda Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində "Ədalət mühakimə sistemində insan haqları ilə bağlı qarşıda duran məsələlər" mövzusunda beynəlxalq seminar keçirilmişdir.

Ədliyyə Nazirliyi tərəfindən cəzaçəkmə müəssisələrində məhkumlarla informasiya məşğələlərində onların hüquq və vəzifələri, xalqımızın milli-mənəvi dəyərlərinin, sülh və dözümlülük, mədəniyyətinin, dövlətin cəza-icra siyasətinin həyata keçirilməsində əfv və amnistiya institutunun, insan hüquqlarının təmin edilməsində Ombudsman təsisatının mahiyyəti, eləcə də əhalinin hüquq təfəkkürünün inkişaf etdirilməsi, ayrı-seçkiliyin yolverilməzliyi mövzularında maarifləndirici tədbirlər təşkil edilmişdir.

Daxili İşlər Nazirliyi tərəfindən əhalinin müxtəlif qrupları arasında maarifləndirmə və izahat işləri aparılmış, KİV-də, o cümlədən DİN-in mətbu orqanları olan "Mübariz keşikdə", "Polis" qəzetlərində insan hüquqları sahəsində görülən tədbirlər haqqında məqalələr dərc olunmuş, habelə ölkədə Yuvenal Ədliyyə sistemi islahatlarına uyğun olaraq, ötən dövrdə hüquqpozma törədən və buna məruz qalan 15 yeniyetmə ilə sosial bərpa və reabilitasiya tədbirləri həyata keçirilmiş, onlara zəruri köməkliklər göstərilmişdir.

Səhiyyə Nazirliyi tərəfindən paytaxtdakı orta ümumtəhsil məktəblərində və ali təhsil müəssisələrində sağlamlıq hüququ mövzusunda maarifləndirmə tədbirləri keçirilmiş, eyni zamanda sağlam həyat tərzinə həsr olunmuş müsabiqələr təşkil edilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Pensiya yaşına çatmış şəxslər üçün Sosial Xidmət Müəssisəsində ahıl vətəndaşların iştirakı ilə tədbir təşkil olunmuş, eyni zamanda Nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən Binəqədi və Abşeron rayonlarında fəaliyyət göstərən işəgötürənlərin nümayəndələrinin, ayrı-ayrı müəssisələrdə çalışan işçilərin iştirakı ilə maarifləndirmə tədbiri keçirilmişdir.

Müdafiə Nazirliyinin Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində "İnsan hüquqlarının müdafiəsi dövlətin ali məqsədidir" adlı seminar keçirilmiş və Nazirliyin mətbu orqanı olan "Azərbaycan Ordusu" qəzetində bu mövzuda yazılar dərc edilmişdir. Yeri gəlmişkən, Müvəkkilin Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Qoşunlarının Komandanlığı və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Komandanlığı ilə razılaşdırılmış plan-cədvəllərə müvafiq olaraq, Ombudsman Aparatının əməkdaşlarının həmin qurumların səlahiyyətli nümayəndələri ilə birlikdə hərbi hissələrə başçəkmələri müntəzəm qaydada davam etdirmişlər.

Mədəniyyət Nazirliyi sisteminə daxil olan Bakı Xoreoqrafiya Akademiyası, Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbi, Mədəniyyət üzrə Elimi-Metodiki və İxtisasartırma Mərkəzi, Milli Kitabxana, F.Köçərli adına Respublika Uşaq Kitabxanası, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası, hebelə Regional mədəniyyət idarələri tərəfindən insan hüquqlarının müdafiəsi və təbliği mövzularına dair müxtəlif maarifləndirici xarakterli tədbirlər keçirilmişdir.

Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Xaçmaz, Şabran, Şamaxı, Ağsu, Qəbələ, Oğuz, Ağdaş, Bərdə, Cəlilabad və Neftçala rayonlarında "18 iyun Milli insan hüquqları günü"nə və "İnsan hüquqları aylığı"na həsr edilmiş "Dayanıqlı İnkişaf Məqsədləri və insan hüquqları" mövzusunda təlimlər keçirilmişdir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı ilə ölkəmizin müxtəlif regionlarında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrində, eləcə də idarə və təşkilatlarda sağlam ətraf mühitdə yaşamaq hüququ və ətraf mühitin qorunması vəzifələri üzrə maarifləndirmə xarakterli seminar, məşğələlər, dəyirmi masalar, görüşlər keçirilmiş, KİV-də bununla əlaqəli müvafiq məlumatlar dərc edilmişdir.

Fövqəladə Hallar Nazirliyi tərəfindən keçirilən tədbirlərdə ölkəmizdə insan hüquqları sahəsində aparılan islahatlar, fövqəladə halların qarşısının alınması və nəticələrin aradan qaldırılması zamanı insanların müdafiəsinin təmin olunmasında nazirliyin fəaliyyəti və rolu mövzusunda müzakirələr aparılmış, təbii və texnogen xarakterli fövqəladə hallar zamanı insan hüquqlarının qorunmasının vacibliyi vurğulanmışdır.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti tərəfindən "Hər bir istehlakçı öz hüquqlarını bilməli və tələb etməlidir" mövzusunda konfrans, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən "Kiçik və orta biznesin inkişafında ictimai şuraların rolu" adlı forum aidiyyəti dövlət orqanlarının, ictimai təşkilatların, ictimaiyyət və KİV nümayəndələrinin iştirakı ilə təşkil edilmişdir.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə "Kibertəhlükəsizlik üzrə Gənclər Seminarı" keçirilmiş, gənclərə gündəlik istifadə etdikləri qurğuların kibertəhlükələrdən mühafizəsi, onlara proqramların quraşdırılması, loqin və parolların kiber-müdafiəsi, məlumatı avtomatik təsnifləmək, şifrələmək, təhlükəsiz paylaşma üsulları, informasiya sistemlərinə edilən müdaxilələrin qarşısının alınması haqqında məlumatlar verilmiş, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Heydər Əliyev Fondu, "Azərbaycan Dəmir Yolları" QSC, YUNİSEF və Gəncə Şəhər İcra Hakimiyyəti ilə birgə "Sürətlə və inamla gələcəyə" əyləncə təbliğat qatarı tədbiri, "İçərişəhər" Dövlət tarix-memarlıq qoruğu İdarəsi ilə birgə "Gözəl bir gün" adlı tədbir keçirilmiş, həmçinin regionlarda fəaliyyət göstərən uşaq və ailələrə dəstək mərkəzləri tərəfindən də müxtəlif mövzularda maarifləndirici tədbirlər təşkil edilmişdir.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin mərkəzi aparatının müvafiq şöbələri, departamentləri və yerli bölmələri tərəfindən əraziləri işğal olunmuş rayon icra hakimiyyəti orqanları ilə birlikdə məcburi köçkün icmaları ilə görüşlər keçirilmişdir.

Dövlət Statistika Komitəsinin aparatının və Komitənin tabeliyində fəaliyyət göstərən Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin əməkdaşlarının iştirakı ilə "İnsan hüquqlarının təminatı" mövzusunda tədbir keçirilmişdir.

Dövlət Gömrük Komitəsinin strukturuna daxil olan gömrük orqanlarında və qurumlarda xarici iqtisadi fəaliyyət iştirakçıları ilə görüşlər keçirilmiş, bu görüşlərdə insan və vətəndaşların hüquqlarının və azadlıqlarının qorunmasının vacibliyi vurğulanmış, tədbir iştirakçılarının müraciətləri dinlənilmiş, onları maraqlandıran suallar cavablandırılmış, gələcəkdə qarşıya çıxa biləcək problemlərin operativ şəkildə həlli yolları birgə müzakirə edilmişdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən paytaxt və regionlarda "İnsan hüquqlarının qorunmasında təhsilin rolu", "Milli-mənəvi dəyərlər və insan hüquqları", "Hüquqlarımızı bilək və zərərli vərdişlərə yox deyək", "Azərbaycanda insan hüquqları", "İnsan hüquqları və dini etiqad azadlığı" və s. mövzularda maarifləndirmə tədbirləri keçirilmişdir.

Dövlət Təhlükəsizliyi Xidmətinin struktur bölmələrində "Demokratik və hüquqi dövlətdə insan və vətəndaşın hüquq və azadlıqlarının təminatı" mövzusunda mühazirə oxunaraq bu istiqamətdə əməkdaşlara geniş məlumatlar verilmişdir.

Dövlət Miqrasiya Xidmətinin regional miqrasiya idarələri tərəfindən "İnsan alverinə qarşı mübarizə və qanunsuz miqrasiya hallarının aradan qaldırılması", "Əməkçi miqrantların müdafiəsi və yerli cəmiyyətə inteqrasiyası", "Miqrasiya prosesi iştirakçılarının hüquq və vəzifələri



Professor Elmira SÜLEYMANOVA,
Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman).

barədə məlumatlandırmanın qanunsuz miqrasiyanın qarşısının alınmasında əhəmiyyəti", "Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması" mövzularında tədbirlər təşkil olunmuşdur.

Milli Televiziya və Radio Şurası tərəfindən (MTRŞ) insan hüquqlarını təbliğ edən mövzularda proqramların yayımlanması ilə bağlı teleradio yayımçılarına müvafiq tövsiyələr verilmiş, habelə insan hüquqlarını təbliğ edən mövzularda konfrans və digər tədbirlərin təşkil olunması məqsədilə MTRŞ Aparatının əməkdaşlarının iştirakı ilə bir sıra regional televiziyalarda dəyirmi masa keçirilmişdir.

Vəkillər Kollegiyasının üzvləri insan hüquqlarının müdafiəsində yaxından iştirak etmiş, ölkəmizin istintaq və məhkəmə orqanlarında həm müqavilə, həm də dövlət büdcəsinin vəsaiti hesabına şəxslərə hüquqi yardımlar göstərmişlər.

Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvlərinə məlumat xarakterli metodik tövsiyələr, insan hüquq və azadlıqlarını təşviq edən mövzuların dərc edilməsinə dair müvafiq tapşırıqlar verilmişdir.

Aylıq çərçivəsində dövlət qurumlarının, o cümlədən yerli icra hakimiyyətlərinin insan hüquqlarına dair təşkil etdiyi tədbirlər əsasən ümummilli lider Heydər Əliyevin insan hüquqları sahəsində həyata keçirdiyi genişmiqyaslı fəaliyyətin uğurla davam etdirilməsi, bu sahədə aidiyyəti dövlət qurumlarının və vətəndaş cəmiyyəti institutlarının rolu, uşaqların, gənclərin, qadınların, ahılların, əlilliyi olan şəxslərin, qaçqın və məcburi köçkünlərin, habelə əhalinin digər sosial qruplarının hüquqlarının müdafiəsi, sağlam həyat tərzinin təbliği, ekoloji sağlamlığın qorunması, insan alveri, erkən evlilik, korrupsiya kimi neqativ hallara qarşı mübarizə və digər bu kimi mövzular əhatə olunmaqla hüquqi maarifləndirmə məqsədini daşımışdır.

Bundan əlavə Aylıq çərçivəsində insan hüquqlarına dair müxtəlif mövzularda inşa və rəsm müsabiqələri təşkil edilmişdir.

Aparılmış təhlillər göstərir ki, əhalinin hüquqi maarifləndirilməsi, onların hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi ilə yanaşı, pozulmuş hüquqların bərpası demokratik-hüquqi dövlətin və vətəndaş cəmiyyətinin qurulması prosesinə təkan verən təşəbbüslər, insan hüquqları sahəsində maarifləndirmə fəaliyyətinin həyata keçirilməsi məqsədilə mütərəqqi ideyaların tətbiqi Aylıq çərçivəsində praktik yanaşma ilə real icra olunur və öz təsdiqini tapır.

Buna görə də inamla qeyd edə bilərik ki, hər il ölkəmizdə belə bir Aylığın elan olunması insan hüquqlarının təmini və təbliği baxımından çox mühüm əhəmiyyət kəsb edən tədbirlərin həyata keçirilməsi ilə nəticələnir.

Azərbaycanın əldə etdiyi yeni-yeni uğurlar, həyata keçirilən genişmiqyaslı islahatlar, beynəlxalq aləmdə qazanmış olduğu nüfuz dayanıqlı inkişafa və insan hüquqlarının etibarlı təmininə xidmət edən məqsədyönlü fəaliyyətin nəticəsidir.

Hazırda həyata keçirilən islahatların əsas hədəfini insan hüquqlarının daha səmərəli təmini, əhalinin layiqli həyat səviyyəsinin qabaqcıl beynəlxalq standartlara çatdırılması istiqamətlərində nailiyyətlərin əldə olunması təşkil edir.

Müvəkkil tərəfindən Milli İnsan Hüquqları Günü münasibətilə ənənəvi olaraq hər il keçirilən, bu il isə "Ədalətli sülh və Dayanıqlı İnkişaf Məqsədilərinə nail olunmasında Ombudsmanların rolu" mövzusuna həsr olunan Ombudsmanların XVI Bakı Beynəlxalq Konfransında müzakirə olunacaq məsələlər, irəli sürüləcək təkliflər və qəbul ediləcək Bakı Bəyannaməsi də məhz insan hüquqlarının daha səmərəli təmininə və təşviqinə xidmət edəcəkdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili olaraq, bütün soydaşlarımızı Milli İnsan Hüquqları Günü münasibətilə təbrik edir və hər birinizi azadlığın, sülhün, inkişafın, müstəqilliyin və ədalətin bünövrəsi olan insan hüquqlarını qorumaq naminə səmərəli əməkdaşlıq əlaqələrinin daha da gücləndirilməsinə çağırıram! ■

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbərliyi Lənkəran və Lerikdə vətəndaşların qəbulunu keçirib



**Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin tapşırığına və mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin və onların müavinlərinin 2019-cu ilin iyun ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəisi, general-leytenant Arzu Rəhimov iyunun 20-də Lənkəranda Astara və Lənkəran rayonlarından olan vətəndaşların qəbulunu həyata keçirib.**

SHXÇDX-nin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qəbuldan əvvəl xidmət rəisi, general-leytenant Arzu Rəhimov və Lənkəran Rayon İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.

Qəbul zamanı hər bir vətəndaşın müraciət və təklifi diqqətlə dinlənilib.

Xidmət rəisi tərəfindən qəbul edilən vətəndaşların müraciətlərinin bir çoxu yerindəcə öz həllini tapıb, araşdırılmasına ehtiyac olan məsələlər qanunvericiliyə uyğun olaraq tədbirlər görülməsi üçün qeydiyyata alınıb.

Həmçinin həmin gün **Xidmət rəisinin müavini, general-mayor Mayıl Şahverdiyev** Lerikdə vətəndaşları qəbul edib.



Xidmət rəhbərliyinin keçirdiyi qəbullarda 42 vətəndaşın müraciəti dinlənilib. Müraciətlər əsasən həqiqi hərbi xidmətə və ya işə qəbul, övladlarının gələcək müddətli həqiqi hərbi xidmət yerinin müəyyənləşdirilməsi, müddətli həqiqi hərbi xidmətə cəlb olunma, veteran adının və vəsiqəsinin verilməsi, eləcə də digər məsələlərlə bağlı olub.

Bəzi vətəndaşlar tərəfindən qaldırılan və Xidmətin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılması üçün qeydiyyata alınıb.

Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün daha rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

**Müşfiq MİRZƏ,**
**"Respublika".**

# Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Sabirabadda vətəndaşlarla görüşüb

**Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin iyun ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadə iyunun 19-da Sabirabad şəhərində Sabirabad və Saatlı rayonlarının sakinlərini fərdi qaydada qəbul edib.**



Qəbuldan əvvəl Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadə və Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzərək ulu öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Kür-Araz Çaylarında Bəndlərin İstismarı İdarsəinin inzibati binasında keçirilən qəbulda Sabirabad və Saatlı rayonlarından olan vətəndaşların müraciət və şikayətlərinə baxılıb. Müraciətlər əsasən suvarma suyuna tələbatın ödənilməsi, yeni subartezian quyularının qazılması, nasos stansiyalarının tikintisi və təmiri, suvarma kanallarının lildən təmizlənməsi, maddi yardım, həmçinin Cəmiyyətin səlahiyyətlərinə aid olmayan müxtəlif məsələləri əhatə edib.

Əhməd Əhmədzadə Sabirabadda 21 vətəndaşı qəbul edib. Qəbulda hər bir vətəndaşın müraciətini dinləyən Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə qəbulda iştirak edən məsul işçilərə müvafiq tapşırıqlar verib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını dilə gətirərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# AZAL prezidenti Cahangir Əsgərov "Paris Air Show 2019" aviasalonunun işində iştirak etmişdir






**AZAL-ın Prezidenti Cahangir Əsgərov Le Burjedə "Paris Air Show 2019" beynəlxalq aviasiya-kosmik salonunun işində iştirak etmiş, orada bir sıra mühüm danışıqlar aparmışdır.**

"Paris Air Show" kosmik salonu aviasiya və kosmonavtika sahəsində dünya istehsalçılarının müasir məhsullarını nümayiş etdirən ən mühüm və nüfuzlu beynəlxalq sərgilərdən biri və dünyanın ən yaşlı aviasalonudur.

Cahangir Əsgərovun "Boeing Commercial Airplanes"-in prezidenti və baş icraçı direktoru Kevin Makalisterlə görüşündə "Boeing" və AZAL arasında tərəfdaşlıq və dostluq münasibətləri yüksək qiymətləndirilmişdir. Tərəflər "Azərbaycan Hava Yolları"na və "Silk Way" aviaşirkətinə yeni geniş füzelyajlı təyyarələrin tədarükünə dair əldə olunmuş razılaşmalara sadiqliyini təsdiqləmişlər.

AZAL prezidenti Azərbaycanın Fransadakı Fövqəladə və Səlahiyyətli Səfiri Rəhman Mustafayev ilə birgə "Azərbaycan Hava Yolları"nın möhkəm tərəfdaşlıq münasibətlərinə malik olduğu "Thales Group" şirkətinin baş vitse-prezidenti Erve Dammann ilə məhsuldar danışıqlar keçirmişdir. Tərəflər Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Hava Məkanından İstifadə, Strategiya və İnkişaf üzrə Səmərəlilik Mərkəzinin (ASEC) açılmasından məmnunluq ifadə etmişlər. Azərbaycanda "Thales" şirkətinin məhsullarının istehsalı üzrə birgə müəssisənin yaradılması barədə fikir mübadiləsi aparılmışdır.

Həmçinin Cahangir Əsgərov "L3 Commercial Aviation Solutions" şirkətinin prezidenti Alan Koruford ilə də danışıqlar aparmışdır. Danışıqlar zamanı tərəflər müxtəlif tipli təyyarələr üçün yeni trenajor komplekslərinin tədürükü məsələsini müzakirə etmişlər. Bundan əlavə, "L3 Technologies" şirkəti "Azərbaycan Hava Yolları" aviaşirkətinə personalın hazırlığı, uçuş imitasiya kompleksləri, habelə kombinə edilmiş nəzəri və interaktiv tədris proqramları sahəsində ən müasir texnologiyaları təqdim edə bilər.

"Paris Air Show 2019" sərgisi çərçivəsində keçirilən əlamətdar tədbirlərdən biri dünyanın ən yaxşı aviaşirkətlərinin mükafatlandırılması mərasimi - "World Airline Awards" olmuşdur. Aviaşirkətlər və hava limanlarının xidmət keyfiyyətinin qiymətləndirilməsi üzrə aparıcı agentlik "Skytrax" ardıcıl olaraq ikinci il "Azərbaycan Hava Yolları"nı Mərkəzi Asiya və Hindistanda ən yaxşı regional aviaşirkət elan etmişdir.

"Bu mükafatın təkrar alınması uçuşlarımızda sərnişinlərə təklif edilən xidmətlərin yüksək keyfiyyətinin ən yaxşı sübutudur. "Skytrax World Airline Awards" mükafatları mülki aviasiyada fərqlənmə nişanı hesab edilir. Mən AZAL-ın bütün sərnişinlərinə bizə göstərdiyi etimada, aviaşirkətin bütün əməkdaşlarına isə yüksək xidmət keyfiyyətini təmin etdiyinə görə minnətdarlığımı bildirmək istəyirəm", - deyə AZAL-ın prezidenti Cahangir Əsgərov bildirmişdir.

"Skytrax"ın Baş Direktoru Edvard Pleysted isə qeyd etmişdir ki, təyyarə göyərtəsində və hava limanı obyektlərində xidmət standartlarının təkmilləşməsi ilə, "Azərbaycan Hava Yolları"nın sərnişinləri aviaşirkətin keyfiyyət artımını müşahidə etməyə davam edirlər. Müştərilər tərəfindən yüksək qiymətləndirilmək "Azərbaycan Hava Yolları"nın aparıcı heyətinə böyük etimadı göstərir.

Xatırladaq ki, "Skytrax"ın son auditinin nəticələrinə görə, AZAL həmçinin nüfuzlu 4 ulduzlu aviaşirkət statusunu təsdiqləmişdir.

Qeyd edək ki, "Azərbaycan Hava Yolları" yaxın gələcəkdə Asiya bazarında öz fəaliyyətini əhəmiyyətli dərəcədə genişləndirməyi planlaşdırır. İyunun 25-dən etibarən Bakıdan Hindistanın paytaxtı - Dehli şəhərinə birbaşa aviareys açılacaq. Həmçinin digər ölkələrə də yeni istiqamətlər açılacaq.

"Skytrax" auditləri göstərilən xidmətlərin keyfiyyəti və işçi heyətinin iş standartlarını əhatə edən 800-dən çox meyarı əhatə edir. Bütövlükdə aviaşirkətin saytı, saytda məlumatın təqdim olunması, aviabiletlərin onlayn bronlaşdırılmasının rahatlığı və digər xidmətlər kimi sərnişinlər üçün mühüm olan aviaşirkətin məhsul komponentləri qiymətləndirilmişdir.

**"Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidməti.**

*Millət vəkili Xanlar Fətiyev:*

# Ölkə başçısının bu sərəncamı sosial sahədə atılan inqilabi addımların davamıdır

**Azərbaycan Prezidenti cənab İlham Əliyevin "Minimum aylıq əməkhaqqının artırılması haqqında" 18 iyun 2019-cu il tarixli Sərəncamı respublikamızda əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində 2019-cu ilin əvvəlində həyata keçirilən sosial islahatların daha da dərinləşdirilməsi və inkişaf etdirilməsi istiqamətində atılan inqilabi addımların davamıdır.**

"Ölkə başçısı İlham Əliyevin dünən verdiyi sərəncamlar bir daha sübut etdi ki, cənab Prezident daim vətəndaşların sosial ehtiyaclarını düşünür və onların maddi rifahının yüksəldilməsi istiqamətində əməli addımlar atır. Bu kimi sosial tədbirlərin həyata keçirilməsi dövlət siyasətinin tərkib hissəsini təşkil edir və Azərbaycan iqtisadi cəhətdən inkişaf etdikcə bu kimi məsələlər prioritet kimi ön planda olacaq". Bu açıqlamanı millət vəkili Xanlar Fətiyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Minimum aylıq əməkhaqqının artırılması haqqında" 18 iyun 2019-cu il tarixli sərəncamını şərh edərkən deyib. Deputatın sözlərinə görə, bu sərəncam ölkəmizdə vətəndaşların maddi rifah halının yaxşılaşdırılması istiqamətində 2019-cu ilin elə ilk aylarından atılan inqilabi addımların davamıdır. Sentyabr ayının 1-dən isə minimum əməkhaqqı nəzərə çarpacaq dərəcədə qaldırılır və 250 manat olacaq. Bu isə ötən ilə nisbətdə təxminən 100% artım deməkdir. Bəli, bu sərəncam əhalinin maddi və sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində əsl inqilabdır.

Millət vəkili qeyd edib ki, ölkə başçısının yeni müvafiq Sərəncamı əhalinin sosial müdafiəsinin gücləndirilməsi, yoxsulluğun aşağı salınması və əhalinin sosial-rifah halının yüksəldilməsi istiqamətində çox böyük əhəmiyyəti olacaq. Göründüyü kimi, ölkə Prezidenti cənab İlham Əliyevin uğurlu sosial islahatlar proqramı təkcə bu il ərzində minimum əməkhaqqının təqribən iki dəfəyə yaxın artırılmaqla, əhalinin rifahına ciddi dəstək olan mühüm sosial uğura nail olmağa imkan verib. Bu bir daha ölkə başçısının siyasətinin qayəsində ölkə vətəndaşının sosial rifah halının yaxşılaşdırılması və problemlərinin həllinin dayandığını göstərir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Milli Qurtuluş Gününə həsr olunmuş tədbir

**Biləsuvar Rayon İcra Hakimiyyətinin rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilat rəhbərləri və ictimaiyyəti nümayəndələrinin iştirakı ilə Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilmişdir.**

Biləsuvar RİH başçısının birinci müavini Xanlar Məmmədov çıxış edərək respublikamızda həmin dövrdə baş verən proseslərlə bağlı ətraflı məlumat verdi. Bildirdi ki, 1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə daxili vəziyyət və hakimiyyət böhranı yarandı. İctimai həyatın bütün sahələrində xaos, hərc-mərclik baş alıb gedirdi. Orduda da vəziyyət ağırlaşır, fərarilik artırdı. Erməni təcavüzü gündən-günə güclənirdi. Azərbaycanda hakimiyyət boşluğu yaranmışdı. Gənc respublikada rəhbərliyə yiyələnmək üçün ayrı-ayrı şəxslər və qruplar arasında mübarizə gedirdi. 1993-cü ilin iyununda vətəndaş müharibəsi təhlükəsi yarananda xalq Naxçıvandan Azərbaycanın görkəmli oğlu Heydər Əliyevi Bakıya dəvət etdi. Heydər Əliyev xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib, iyunun 9-da Bakıya gəldi. Heydər Əliyev çox az zamanda Azərbaycanda vətəndaş müharibəsinin qarşısını aldı, ölkəni vətəndaş müharibəsindən qurtardı. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Beləliklə, 15 iyun tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu.



X.Məmmədov bildirdi ki, hazırda Azərbaycan ulu öndərimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni uğurlara imza atır. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı getdicə sürətlənir, həyatın bütün sahələrində, daxili və xarici siyasətdə uğurlarımız ilbəil artır.

Tədbirdə çıxış edənlər bütün mənalı həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti barədə danışaraq bildirdilər ki, Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaq.

**Ərəstun ABDULOV,**
**"Respublika".**

# İmtahan sessiyası ilə bağlı mediatur

Bakı Slavyan Universitetində (BSU) aparıcı KİV nümayəndələri və təhsil ekspertlərinin iştirakı ilə 2018-2019-cu tədris ilinin yay imtahan sessiyasının monitorinqi aparılıb. Qonaqlar auditoriyalarda imtahanların gedişini izləyiblər. Onlar burada kameraların, ağıllı lövhələrin iş prinsipləri ilə tanış olublar.

Sonra müşahidəçilər Operativ qərargahın işi ilə tanış olublar. BSU-nun rektoru, professor Nurlana Əliyeva onlara imtahan sessiyası ərəfəsində universitetdə aparılan işlər, imtahanlara hazırlıq barədə məlumat verib. Bildirib ki, Təhsil nazirinin 2018-2019-cu tədris ilinin imtahan sessiyasının təşkili və keçirilməsi barədə imzaladığı əmrinə əsasən, imtahanlar mövcud qaydalara uyğun təşkil edilir, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflıq və obyektivlik təmin olunur. BSU-da artıq 279 fənn üzrə imtahan təşkil olunub və 55 auditoriyada imtahan keçirilir.



İmtahan prosesində operativliyin təmin edilməsi və şəffaflığın artırılması məqsədilə BSU-nun tədris işləri üzrə portalının "Modul 3" bölməsində bütün kurslar üzrə imtahanların nəticələri dərhal elan olunur. Tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin təmin olunması, daxil olan şikayətlərin qısa zamanda araşdırılıb, müvafiq qərarların qəbul edilməsi üçün Operativ qərargah və Münaqişə komissiyası yaradılıb. İyunun 1-dən etibarən başlayan imtahanlar iyulun 6-a qədər davam edəcək.

Görüşün sonunda jurnalistlərin və təhsil ekspertlərinin imtahan sessiyası ilə bağlı təəssüratları dinlənilib.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**

---

Təkliflər sorğusu

Satınalan təşkilatın adı: Kənd Təsərrüfatı Nazirliyi

Təkliflər sorğusu haqqında:

Lot 1 - Baytarlıq Elmi-Tədqiqat İnstitutunun yardımçı binalarının əsaslı təmiri, Baytarlıq Klinikasının tikintisi və ərazinin abadlaşdırılması

Lot 2 - Salyan Regional Aqrar Elm və İnnovasiya Mərkəzinin inzibati idarə binasının əsaslı təmiri və yardımçı binaların tikintisi

Lot 3 - Fillokseraya davamlı calaq-üzüm əkin materialının istehsalı üçün calaq kompleksinin tikintisi

Lot 4 - Azərbaycan Dövlət Aqrar Universitetinin Mühəndislik fakültəsinin Emalatxana binasının əsaslı təmiri

Lot 5 - Azərbaycan Dövlət Aqrar Universitetinin Əczaçılıq və morfologiya kafedrasının binasının əsaslı təmiri

Lot 6 - Aqrar yönümlü Peşə təhsili məktəbinin tikintisi

Lot 7 - İsmayıllı rayonunda xırda buynuzlu heyvanların qırxım məntəqələrinin və mal-qaranın çimizdirilmə qurğularının tikintisi

Lot 8 - Goranboy rayonunda xırda buynuzlu heyvanların qırxım məntəqələrinin və mal-qaranın çimizdirilmə qurğularının tikintisi

Lot 9 - Şəki rayonunda xırda buynuzlu heyvanların qırxım məntəqələrinin və mal-qaranın çimizdirilmə qurğularının tikintisi

Lot 10 - Tovuz rayonunda xırda buynuzlu heyvanların qırxım məntəqələrinin və mal-qaranın çimizdirilmə qurğularının tikintisi

Lot 11 - Ağstafa rayonunda xırda buynuzlu heyvanların qırxım məntəqələrinin və mal-qaranın çimizdirilmə qurğularının tikintisi

Lot 12 - İmişli rayonunda xırda buynuzlu heyvanların qırxım məntəqələrinin və mal-qaranın çimizdirilmə qurğularının tikintisi

Lot 13 - Ağcabədi rayonunda xırda buynuzlu heyvanların qırxım məntəqələrinin və mal-qaranın çimizdirilmə qurğularının tikintisi

Lot 14 - Beyləqan rayonunda xırda buynuzlu heyvanların qırxım məntəqələrinin və mal-qaranın çimizdirilmə qurğularının tikintisi

Lot 15 - Göygöl rayonunda xırda buynuzlu heyvanların qırxım məntəqələrinin və mal-qaranın çimizdirilmə qurğularının tikintisi

Lot 16 - Samux rayonunda xırda buynuzlu heyvanların qırxım məntəqələrinin və mal-qaranın çimizdirilmə qurğularının tikintisi

Lot 17 - Qazax rayonunda xırda buynuzlu heyvanların qırxım məntəqələrinin və mal-qaranın çimizdirilmə qurğularının tikintisi

Lot 18 - Şəmkir rayonlarında xırda buynuzlu heyvanların qırxım məntəqələrinin və mal-qaranın çimizdirilmə qurğularının tikintisi

Lot 19 - Sabirabad rayonlararası Bioloji laboratoriya binasının əsaslı təmiri

Lot 20 - Salyan Dövlət Sort Sınaq Məntəqəsinin inzibati və yardımçı binalarının tikintisi

Lot 21 - Qazax Dövlət Sort Sınaq Məntəqəsinin inzibati və yardımçı binalarının tikintisi

Lot 22 - Ağdam Dövlət Sort Sınaq Məntəqəsinin inzibati və yardımçı binalarının tikintisi

Lot 23 - İsmayıllı rayonunda Toxum emalı zavodunun tikintisi

Lot 24 - Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun Samux rayonunun İnstitut qəsəbəsində yerləşən Texniki Bitkilər şöbəsinin inzibati və laboratoriya binasının əsaslı təmiri

Lot 25 - Gəncə RAEİM-in inzibati binasının əsaslı təmiri və yardımçı binalarının tikintisi

Maraqlanan təşkilatlar 012-498-02-57 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər (Kamil Şirinov).

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 08.07.2019-cu il saat 17:00 tarixinədək qəbul olunur

Zərflər 09.07.2019-cu il saat 17:00-da açılacaqdır.

# Zərdabda barama tədarükü davam edir

Baramaçılığın inkişaf etdirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin icrası istiqamətində Zərdab rayonunda xeyli işlər görülmüşdür. Məlumat üçün deyək ki, rayon üzrə 2016-cı ildə 5710 kq, 2017-ci ildə 27 ton 55 kq, 2018-ci ildə 53 ton 880 kq barama tədarük edilmişdir. 2019-cu ildə 1750 qutu barama qurdu kümçülərə paylanmışdır. Hazırda 3800 nəfəri əhatə edən 760 ailə baramaçılıqla məşğul olur. Artıq rayonda barama təhvilinə başlanılmışdır. Bu günədək 50 ton barama təhvil verilmiş, yaxın günlərdə isə daha 70 ton barama tədarükü gözlənilir.

Rayon üzrə öndə gedən kümçülərdən Gəlmə kənd sakini Teymur Teymurzadə 476, Alıcanlı kənd sakini Əlişah Cavadov 415, Nəzəralılı kənd sakini Surxay Xəlilov 327, Məmmədqasımlı kənd sakini Rəşad



Rəşidov 258, Əlvənd kənd sakini Mənsur İbrahimov 241, Sarıqaya kənd sakini Çingiz Abbasov 240, Bıçaqçı kənd sakini Əlif Qurbanov 239, Zərdab şəhər sakini Yusif Muradov 223, Ağabağı kənd sakini Əlişah Qurbanov 191 kq məhsul təhvil vermişlər. Barama tədarükündə zərdablılar ölkə üzrə birincilər sırasında olmaq niyyətindədirlər.

**Maarif RZAYEV,**
**“Respublika”.**

# Azərbaycan may ayında neft hasilatı ilə bağlı öhdəliyini tam yerinə yetirib

**Energetika Nazirliyindən verilən məlumatda bildirilir ki, respublikada may ayı üzrə gündəlik neft hasilatı 776 min barel olub. Bunun 699 min barelini xam neft, 77 min barelini kondensat təşkil edib. Gündəlik 494 min barel xam neft, 75 min barel kondensat, 14 min barel isə neft məhsulları ixrac olunub.**

Gündəlik neft hasilatının 776 min barel həcmində saxlanmasına dair razılaşma müqabilində Azərbaycan hasilatı sutkada 20 min barel azaltmaqla bağlı götürdüyü öhdəliyi tam yerinə yetirib. Müqayisə üçün bildirək ki, cari ilin yanvar-may aylarında orta gündəlik neft hasilatı 771,2 min barel olub.

Energetika Nazirliyi mart ayında gündəlik neft hasilatı ilə bağlı məlumatları OPEC-in Birgə Monitorinq Komitəsinin Müştərək Texniki Komissiyasına təqdim edib.

2018-ci il dekabrın 7-də Vyanada Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEC) üzv və qeyri-üzv dövlətlərin nazirlərinin V görüşündə neft hasilatının gündəlik 1,2 milyon barel azaldılması ilə bağlı razılıq əldə olunub. “Əməkdaşlıq Bəyannaməsi”nin icrası 2019-cu ilin I yarısı üçün nəzərdə tutulub.

**“Respublika”.**

# “Nəsimi ili: klassik ədəbi irsə müasir baxış, milli və bəşəri ideyaların təbliği”

Azərbaycan ədəbiyyatı tarixində fəlsəfi şeirin əsasını qoymuş, söz sənətimizi formaca və məzmunca zənginləşdirmiş dahi şair və mütəfəkkir, söz ustadı Seyid Əli Seyid Məhəmməd oğlu XIV əsrin ortalarında Azərbaycanın qədim mərkəzlərindən olan Şamaxı şəhərində anadan olmuşdur. O, təhsilini Şamaxıda almış, dövrünün elmlərini, dinlərin tarixini, məntiq, riyaziyyat və astronomiyanı, klassik Şərq və qədim Yunan fəlsəfəsini mükəmməl öyrənmişdi. Yaradıcılığa aşiqanə, lirik şeirlərlə başlayan şair ilk şeirlərini “Hüseyni” təxəllüsü ilə yazmış, sonralar Azərbaycanda geniş yayılmış hürufilik təriqətinin banisi Fəzlullah Nəiminin təxəllüsü ilə həmahəng səslənən “Nəsimi” təxəllüsünü qəbul etmişdi.

## Hürufilik təriqəti və Nəsimi yaradıcılığı

İmadəddin Nəsiminin bədii yaradıcılığı Azərbaycan poeziyasının və ədəbi dilinin inkişafında mühüm bir mərhələdir. Nəsimi Azərbaycan şeir dilini yüksək bir zirvəyə qaldıraraq əsərlərində dövrün mütərəqqi fikirlərini tərənnüm etmiş, ədəbi dilimizin cilalanması, zənginləşməsi və təkmilləşməsində misilsiz xidmət göstərmiş, nəinki Azərbaycan ədəbi mühitinin formalaşmasında, eyni zamanda türk, türkmən özbək və s. türk xalqlarının ədəbiyyatına böyük təsir göstərmişdi.

Hürufiliyin banisi Fəzlullah Nəimidən sonra təriqətin başçısı seçilən Nəsimi Türkiyə, Suriya, Misir, İraq və s. ölkələrə səfərə çıxaraq hürufi ideyalarını təbliğ edirdi. O, uca Haqqın kamil insanda təcəlla etdiyini bəyan edərək insanı həyatın yaradıcısı, gözəlliyin təcəssümü kimi tərənnüm edir, insan gözəlliyini, insan qüdrətini hər şeydən üstün tutaraq kamil insanı fövqəlbəşəri varlıq kimi dəyərləndirirdi. Şair şeirlərində insanın daxili aləmini, iç dünyasını ustalıqla, məharətlə açır, kişilik, igidlik göstərərək xalqa əməli ilə xidmət edən, eşq yolunu tutan, qəlblərində ilahi sevgi gəzdirən, ən əsası isə öz nəfsinə qalib gələ bilən kamil insan obrazı yaradırdı. Hürufiliyin əsas obrazı olan “kamil insan” Nəsimiyə görə, özünü dərk edən, ülvi, ilahi bir varlıqdır. Elə buna görə də bütün əsərlərində insanı özünü dərk etməyə, həyat və ölüm haqqında düşünməyə çağıran filosof-şair var-dövlətə həris insanları nadan adlandırır, Allaha olan sevgisini dərin duyğuları ilə dilə gətirir, “ənəlhəq” deməkdən çəkinmirdi.

*Ey özündən bixəbər, gəl, Haqqı tanı, səndədir,*
*Gir vücudun şəhrinə, seyr et, gör anı, səndədir.*

Nəsimi poetik əsərlərini Azərbaycan türkcəsi ilə yanaşı, fars və ərəb dillərində də yazan ilk Azərbaycan şairidir. O, Azərbaycan, ərəb və fars dillərini mükəmməl bilir, bu dillərdə yazıb yaradaraq mütərəqqi fikirlərini daha geniş oxucu kütləsinə çatdırdı. Ana dilində yazdığı dövrünün siyasi, ictimai, əxlaqi mövzularda olan əsərləri Azərbaycan şeirinin inkişafına, o cümlədən Şah İsmayıl Xətai, Füzuli, Vaqif kimi sənətkarların yaradıcılığına böyük təsir göstərirdi.

Nəsimi öz fəlsəfi şeirlərində Nəiminin yaratdığı hürufiliyə tapınır, onu təbliğ edirdi. Yaradıcılığının ana xəttində lirik qəhrəmanının aşiq olduğu Allah dayanan şair insanı Allahla eyniləşdirir, onu ilahiləşdirir, insan səadətini, könül sərbəstliyini ön plana çəkərək deyirdi:

*“Məndə sığar iki cahan,*
*mən bu cahana sığmazam,*
*Gövhəri laməkan mənəm,*
*kövni-məkana sığmazam”.*

Nəsimi yaradıcılığı milli-mənəvi varlığımızın ayrılmaz bir hissəsidir. Azərbaycan ədəbiyyatı tarixində ana dilində yaranan fəlsəfi qəzəlin banisi, humanizm, insanpərvərlik ideyalarının carçısı İmadəddin Nəsimi dilinin ahəngi, axıcılığı, özünəməxsus ifadə tərzi istər dini-fəlsəfi, istərsə də dünyəvi şeirlərində özünü göstərir. O, əruz vəznini dilimizə tətbiq edərək Azərbaycan dilinin təkmilləşməsi və türk əruzunun formalaşmasına mühüm töhfələr verib.

## Klassik ədəbi irsə müasir baxış, milli və bəşəri ideyaların təbliği

Milli ideologiya, milli tarix, milli dil, dinimiz, milli mədəniyyət və incəsənətimiz, milli ədəbiyyatımız xalqımızın formalaşmasında, milli dövlətçiliyimizin möhkəmlənməsində xüsusi rol oynayan dəyərlərimizdir. Ədalət, insanpərvərlik, dürüstlük kimi mənəvi dəyərləri özündə birləşdirən kamil insanlar əməlləri ilə təkcə müasirlərinin deyil, həm də gələcək nəsillərin , bütövlükdə insanlığın və bəşəriyyətin nicatına xidmət edirlər.

Bütün həyatı boyu insana böyük dəyər verən, xeyirxahlıq, mərhəmət və humanizmin bəşər övladını daxilən saflaşdıran, başqalarının gözündə ucaldan ali dəyərlərdən hesab edən, anadilli şeirimizi humanist ideyalarla, yeni məzmun, deyim tərzi və bədii lövhələrlə zənginləşdirən görkəmli söz ustadı İmadəddin Nəsimi yaradıcılığında milli və bəşəri ideyaların təbliğinə geniş yer ayrılır. Onun yaradıcılığında mübarizlik, sülh, tolerantlıq, multikulturalizm ideyaları daim təbliğ olunur. Bədii söz sənətimizin qiymətli incilərini yaradan mütəfəkkir şair insan əzəmətini, insan məhəbbətini tərənnüm edərək təkcə Azərbaycan ədəbiyyatına deyil, bütünlükdə ümumtürk ədəbiyyatına yeni forma, təzə şeir gətirmişdi. Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylunun bu barədə dediklərindən: “Klassik ədəbi irsə müasir baxış dedikdə ilk olaraq mənəvi dəyərlər göz önünə gəlir. Klassik ədəbiyyatımız başdan-başa humanist ideyalar üzərində köklənib. Humanist fikirlər, insana dəyər vermək, onun daxili aləmini təsvir etmək, insanı yer üzərinin əşrəfi olaraq qəbul etmək, dinindən, dilindən asılı olmayaraq, bütün insanlara məhəbbət göstərmək istər böyük şairlərimiz Nizami Gəncəvinin, Məhəmməd Füzulinin, İmadəddin Nəsiminin yaradıcılığında, istərsə də sonrakı dövr ədəbiyyatımızda xüsusi yer tutur. Hələ XIV əsrdə Nəsimi yazırdı:

*Ey daşəvü türabə deyən qiymətli gövhər,*
*İnsan bu hüsnü lütf ilə gövhər degilmidir ?!*

Bu gün müasir ədəbiyyatımızın da əsas mövzusu kamil insandır. Ümumiyyətlə, ədəbiyyat insanı bədii şəkildə əks etdirən söz sənətidir. Hər hansı ədəbi əsərin mahiyyəti bədiilik və məna tutumu baxımından əhəmiyyətlidir. Aşılanan fikirdə ideya ilə bədiilik vəhdət təşkil edirsə, o əsər, həqiqətən, zirvədə dayanır. Nəsiminin əsərləri də bu zirvədə dayanan əsərlərdir. Çünki onun yaradıcılığında iki meyar - dərin məna, humanist fikirlər, işıqlı ideyalar, insanın ucalığı, mənəvi aləminin dəyəri ilə bədiilik üzvi vəhdət təşkil edir, yaradıcılığının ana xəttini təşkil edir.

Nəsiminin digər bir üstünlüyü də bu humanist ideyaları doğma ana dilində təbliğ etməsi idi .O, ana dilində yazdığı şeirləri ilə sübut elədi ki, Azərbaycan dili zənginliyinə, bədii ifadə vasitələrinə görə o dövrdə ən yüksək pillədə dayanan və qəbul edilən ərəb-fars dillərindən heç də geridə qalmır. İrqindən, dilindən, dinindən fərqli olmayaraq Nəsimi üçün bütün insanlar eynidir”.

Dilçilik İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru, professor, Əməkdar müəllim Sevil Mehdiyeva Nəsimi yaradıcılığından danışarkən dedi: “Filosof, yazıçı, ədəbi tənqidçi, publicist V.Q.Belinski deyirdi ki, ədəbi dil o zaman özünün apogey (ən yüksək) zirvəsini fəth edir ki, o, xalq dilinin dərinliklərinə enib ordan incə mənalı dürrlər seçərək ədəbi dilə gətirir. Nəsimi bunu beş əsr bundan əvvəl etmişdir. O, düz beş əsr bundan əvvəl Azərbaycan-türk sözlərinə ədəbi səlahiyyət vermiş, türkdilli Şərqə günəş kimi parlamışdı. Nəsimi yaradıcılığında azadlıq ideyaları, humanist ideyalar təbliğ olunur, türk dillərinin tacı olan Azərbaycan dilinin böyüklüyü bütün dünyaya bəyan edilirdi”.

## Azərbaycanda Nəsimi yaradıcılığı daim diqqətdə olub

Təkcə Azərbaycan ədəbiyyatının deyil, bütövlükdə Şərq xalqlarının ədəbiyyatında özünəməxsus yer tutan Nəsimi yaradıcılığı hər zaman elmi-ədəbi fikrin diqqət mərkəzində olub. Hələ 1973-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ümumtürk ədəbiyyatının təkmilləşməsində müstəsna rol oynayan, mütəfəkkir şair İmadəddin Nəsiminin 600 illik yubileyi keçirilmiş, böyük şairin yubileyi YUNESKO-nun görkəmli şəxsiyyətlərin yubileyləri siyahısına daxil edilmiş, elə həmin ildə Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutuna Nəsiminin adı verilmişdi. İnsanların mənəvi-əxlaqi kamilləşməsində mühüm rol oynayan Nəsimi irsinin əlyazma nüsxələri əsasında öyrənilməsi Azərbaycan dili və ədəbiyyatı tarixinin tədqiqində yeni mərhələ açmış, əsərləri dəfələrlə nəşr olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən şairin əsərlərinin kütləvi tirajla nəşr olunması buna bariz nümunədir.

1979-cu ildə ölkəmizin paytaxtında şairin heykəli ucaldılmış, 2017-ci ildə Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin yubileyi qeyd edilmiş, 2018-ci ildə ölkəmizdə “Nəsimi şeiri, incəsənət və mənəviyyat” festivalı keçirilmişdir.

